Ədalət.- 2017.- 3- 4 mart.- S. 3.

# Şərə meydan açan roman

## (Xalq şairi Sabir Rustəmxanlının "Şair və Şər" romanı haqqında)

**Bütün zamanlarda ŞƏRə savaş açıblar əsl ŞAİRlər. İzləyiblər ŞƏRi addım-addım, qarış-qarış. İmkan verməyiblər ŞƏRə gerçəkləşdirsin qəddarlığını, vəhşiliyini, iblislik və ilanlığını. Qırıblar ŞƏRin kirli-çirkli əllərini. Kəsiblər ŞƏRin paklara-təmizlərə həcviyyat yazan dillərini. Fürsət verməyiblər ŞƏRə ürəklər dağlamağı. Qapılar bağlamağı. Evlər yıxmağı. Və nəticədə çevriliblər bəşəriyyətin qürur və iftixarına. Ucalıblar əxlaq-mənəviyyat zirvələrinə. Yüksəliblər əlçatmazlıqlara Nəimi və Nəsimi kimi. Bəşəriyyətə fəxr-fəxarətə çevriliblər Bayron və Şelli kimi. Qərarlaşıblar əbədiyyət taxtında Petefe və Mitskeviç kimi. Əyləşiblər şərəf və namus taxtında Puşkin və Lermontov kimi. Başlarında gəzdiriblər mərdlik və qəhrəmanlıq tacını N.Hikmət və X.R. Ulutürk kimi!**

Şərə və Şərin törəmələrinə köksünü qalxan edənlərdəndir fəxrimiz - iftixarımız. MƏHƏMMƏD HADİ əfəndi də!

Faciəli - tragik, fəqət əyilməz - sarsılmaz bu böyük şair və yurdsevər cəmi 41 il yaşadı - ağlı-qaralı 41 il.

Başı bəlalı 41 il.

Zülm - işgəncə yüklü 41 il.

Müharibə dəhşətlərindən, insan fəryadlarından çırpılan 41 il.

Sürgünlük - sərgərdanlıq, qaçqınlıq-köçkünlük bükülü 41 il.

Təklik - tənhalıqdan, yoxsulluq - ehtiyacdan sınan - qırılan 41 il.

"Bürhani - tərəqqi", "Həyat", "Füyuzat", "Tənin" qəzet-jurnallarda elm-təhsil, maarif-mədəniyyət işığına bürünən 41 il.

Xalqa-millətə, azadlığa, böyük ictimai ideallara sonsuz yanğı - ehtirasla dolu 41 il!

Təəssüflər olsun ki, faciəli-kəşməkəşli ömür yaşayan bu mütəfəkkir şəxsiyyətin, bu milli və azadlıq fədaisinin həyatı bədii ədəbiyyatda geniş və əhatəli planda ya az işlənmiş, ya da heç işlənməmişdir (Xalq şairi B.Vahabzadənin "Xəzan bülbülü" əsəri istisnadır) və məncə, Xalq şairi SABİR RÜSTƏMXANLInın "ŞAİR və ŞƏR ("Elm-təhsil", Bakı-2015) romanı ilk uğurlu poetik örnəkdir.

8 çoxşaxəli, çoxplanlı bölüm-epizodlardan ibarətdir "Şair və Şər" romanı (onu da qeyd edim ki, buradakı "şair" sözü "xeyir" anlamındadır, "xeyir" sözünün sinonimidir). Hər bölüm - epizod öz daxili məzmun və vəhdəti etibarilə bitkin - bütöv, tam-dolğun yarımbölümlərə və yarımsüjetlərə bölünür. Bu çoxşaxəlilik, bu çoxplanlılıq M.Hadi həyatının bütün mərhələ-dönəmləri ilə qırılmaz bağlıdır və M.Hadi bioqrafiyasının doğuş-çöküşlərinə, qabarma-enmələrinə güzgü tutur. Tam aydın və dolğun, tam möhtəşəm və əzəmətli görünür böyük Hadinin həm ictimai-siyasi mücadiləsi, həm elmi-pedaqoji fəaliyyəti, həm bədii-publisist yaradıcılığı, həm də bədii obrazı və şəxsiyyəti bu qabarma-enmələrdə, bu yüksəliş-çöküşlərdə. Açır-tökür ortalığa Sabir Rüstəmxanlı M.Hadi ömürlüyünün ən mübhəm, ən gizli məqamlarını, ən kiçik, ən xırda detallarını belə. Heç nə, heç şey yayınmır Sabir Rüstəmxanlı qələmindən. Yayınmır nə Hadinin səfil-sərgərdan həyatı, nə qaçqınlıq-köçkünlük-sürgünlük ağrıacıları, nə uğur-uğursuzluqları, nə rus, nə İran-Osmanlı inqilablarına bəslədiyi ümidləri, nə müharibə meydanlarında gördüyü dəhşət-vəhşət səhnələri, nə türkün sənət sütunları ilə görüşləri, qızğın mübahisələri, nə çar Rusiyasına sonsuz nifrət və hiddəti, nə də ötəri-köçəri uğursuz sevgi macəraları

Hadinin həyat və məişətinə, ədəbi-bədii düşüncə tərzinə, əxlaqi-mənəvi keyfiyyətlərinə, dünyagörüşündəki müsbət və mənfi görsənişlərinə, etik-estetik baxışlarına, xarakterindəki coşqunluq və inqilabiliyə vaqif bir yazar kimi Sabir Rüstəmxanlı tələsmədən, təfərrüata varmadan, ləngərli-ləngərli təsvir edir Hadini həm müxtəlif əqidəli ziyalıların çevrəsində, həm "məcməüş-şüəra" ədəbi məclisində, həm qəzet-jurnal redaksiyalarında, həm Kürdəmirdə Ağa Əfəndi ilə açdığı məktəbdə, həm savaş-vuruş cəbhələrində, həm jandarm idarələrində, həm də meyxana və lokantalarda

Sabir Rüstəmxanlı Hadini hansı sosial sferada təsvir edir-etsin, fərq etməz, orada mütləq Şər rüzigarları əsir Hadi səmtə, Şərin qorxunc kölgəsi çökür Hadi üstünə. Başlayır Şərlə Hadinin ölüm-dirim savaşı Amansız-rəhmsiz ŞəR "uf" belə demədən gözəgörünməz daşlarını yağdırır Hadinin başına. Bir an belə Hadini rahat buraxmır Şər. İzləyir, pusur, güdür Hadini usanmadan-bezmədən, uyumadan-göz qırpmadan. Beşikdən məzaradək yoldaşlıq edir Hadiyə Şər. Fəqət Hadi nə özünü, nə sözünü Şərə təslim edir. Vuruşur Şərin atributları ilə. Çarpışır Şərin övladları ilə. Savaşır Şərin törəmələri ilə: savadsızlıq və elmsizliklə, cəhalət və nadanlıqla, köləlik və nökərçiliklə, haqsızlıq və ədalətsizliklə, qətl və qarətlə Vuruşur, çarpışır, savaşır Şərlə yalnız Özü. Anlayırdı ki, təkbaşına Şərlə vuruşmaq çətindir, lakin vacibdir. Bu işə hamını, hər kəsi qoşmaq gərəkdir. Bunun üçün məktəb ilkin şərt, ilkin vasitədir: "Məktəb bu çətinliyi asanlaşdırardı. Əlifba məktəbdən başlanır, qoy sözünün əlifbası da məktəb olsun!" (səh. 76). Hadiyə görə, məktəb milli düşüncəyə can verməkdir, ölü ürəklərə qan dağıtmaqdır, mərhəmət qapılarını açmaqdır, ürəyi və ruhu Allaha qovuşdurmaqdır, bəşəri bəlalardan qorumaqdır, avamlıq qaranlığını dağıtmaqdır, köləliyin, susqunluğun daşını atmaqdır (səh. 77).



Tezliklə ad çıxardı Hadi məktəbi. Səsi-sorağı yayıldı yaxın-uzaq oymaqlara. Kənd mollaları özlərindən çıxdı. Və bir gün onlar - bu Şər bayquşları əliçirməkli cumdular Hadinin məktəbinə. Suçladılar Hadini çox şeydə: şeytana qulluqda, islamı kafirlərin ayağına verməkdə, Qurana arxa çevirməkdə və s. Din bazarlığında qazanc axtaran mollalarla söz döyüşündə susmadı Hadi. Fəqət susdurdu onları Qurana söykənən elmi fakt və dəlillərlə. Ağızlarını kolluğa verdi onların peyğəmbər əfəndimizin "Elm əgər Çində də olsa, onun ardınca get!" dünyaca məşhur kəlamı ilə!

Sona çatır mollalarla döyüş. Hamı məğlub, hamı pərişan. Hamı utanmış halda başını aşağı salır, mat-məəttəl baxır Hadinin üzünə. Susan təkcə mollalar deyil. Susan həm də Şərdir. Şərin qolu-qıçı sındırılmış qaraniyyətli naqis övladlarıdır. "Mənim üstümə niyə gəlmisiniz. Mənim niyyətim uşaqlarımızın oxuyub elmə yiyələnmələridir. Millət üçün maarifdən vacib nə ola bilər? Bizi başqa xalqlardan geri qoyan məktəbimizin, mədrəsəmizin olmamasıdır" (səh. 87).

Savadsızlıq tüğyan edir müstəmləkə Azərbaycanda. Bir ziya işığı harda görünürsə, onu dərhal söndürür hökumət. Hadi düşünür ki, məmləkətdə təhsil siyasəti yox, təhsilsizlik siyasəti bərqərardır, oturuşludur. Bu, bəlkə də, çar hökumətinin yürütdüyü planlı, düşünülmüş siyasətidir ki, Azərbaycan savadsızlar ölkəsi olsun. Təhsil, xüsusən əyalətlərdə rejimə sərfəli deyil. Çünki çar hökuməti çox gözəl bilirdi ki, savadsızlıq korəfəhmlikdir, siyasi naşılıqdır, milli-mənəvi dəyərlərə arxa çevirməkdir, milli kimliyi itirməkdir və s. Romanın bir yerində Hadi: "Məktəbi biz açmalı deyilik, Ağa Əfəndi, bunu hökumət açmalıdır" replikasını Ağa Əfəndi belə cavablandırır: "Hansı hökumət? Urus hökuməti? İşğal edib böldüyü, əzdiyi millətin oxuyub ayılmasını, dünyanın işlərini anlamasını, baş qaldırmasını istəyər?!" (səh. 73).

Savadlanma və maariflənmənin əhəmiyyətini, milli-mənəvi tərəqqiyə təsirini yaşa dolduqca, dünyabaxışı formalaşdıqca, bəşər tarixinin mütəfəkkir simalarının həyat - yaradıcılığını öyrəndikcə Hadi daha aydın dərk edir. Anlayır ki, əksər dünya ölkələrinin, xüsusən Avropa dövlətlərinin gücü-qüdrəti yalnız savadlanmada-maariflənmədədir, elmə və elmin inkişafına xəsislik etmədən sərmayə yatırmadadır. Təəssüflənir ki, təbəəsi olduğu çar hökuməti həm Qafqazda, həm də digər coğrafiyalarda yaşayan türklərə yadögey münasibətlidir, onların savadlanmasının - maariflənməsinin əsla fərqində belə deyil: "Hökumətin heç vecinə deyil, müsəlman oxuyur, ya oxumur, nə qədər savadsız olsa, Peterburqu o qədər sevindirəcək. Görürsən məktəb, elm Avropanı hara qaldırıb? Bir vaxtlar bizdən də pis gündəydilər" (səh. 71).

**(ardı gələn sayımızda)**

***Musa Xanbabazadə,***
***filoloq-ədəbiyyatşünas,***
***AJB-nin üzvü***

**AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ**